# Türk xalqlarının mədəni irsinin öyrənilməsində TÜRKSOY-un roluna dair

**Gözəl Tağısoy Kılavuz**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin doktorantı
E-mail: *gozal91taghisoy@gmail.com*

XX əsrin son onilliyində dünyada baş verən qlobal siyasi hadisələr nəticəsində sovet imperiyası dağıldı, uzun illər onun tərkibində yaşamağa məcbur olmuş xalqlar siyasi müstəqilliyini qazanaraq öz suveren dövlətlərini yaratdılar. Bu xalqların qarşısında milli-mənəvi dirçəliş yolunda, dünya xalqları ailəsində özünə layiq yer tutmaq üçün geniş üfüqlər açıldı. Zəngin və qədim mədəni irsə sahib türk xalqları da tarixin bəxş etdiyi fürsətdən istifadə edərək milli-mədəni özünəqayıdış yolunda ciddi addımlar atmağa başladı. Eyni soya, dilə, tarixi və mədəni keçmişə, adət-ənənəyə malik türklərin mənəvi həyatında gedən prosesləri əlaqələndirmək və düzgün istiqamətləndirmək məqsədi ilə həmin dövrdə yaradılmış beynəlxalq mədəniyyət təşkilatlarından biri də TÜRKSOY-dur.

Bu hadisə tarix, mənşə, dil, din və mədəniyyət baxımından eyni kökdən olan türk xalqlarının yeni şəraitdə əlaqələrinin genişlənməsi və dərinləşməsi üçün hərtərəfli imkanlar açdı. İlk dəfə 1992-ci ilin oktyabrında Ankarada təşkil olunmuş türkdilli dövlətlərin başçılarının zirvə görüşü ötən illər ərzində davamlı bir ənənəyə çevrildi ki, bu da qardaş türk xalqları arasında dostluğun və əməkdaşlığın inkişafına xidmət edir.

"Türkdilli dövlətlərin başçılarının I Ankara görüşündən ötən dövr ərzində bizim birliyimiz inkişaf edib, möhkəmlənib və gələcək üçün böyük ümidlər yaradıb. Bu illər ölkələrimizin, dövlətlərimizin arasında bütün sahələrdə əlaqələr genişlənib, əməkdaşlığımız öz səmərəsini göstərib" (6). Zirvə toplantıları keçirildiyi vaxtdan bugünədək ölkələrimiz arasında həmrəyliyin və ortaq şüurumuzun qüvvətlənməsinə yardım etmiş, XXI əsrdə türk dünyası bərabərliyinin yenidən yaranmasında mühüm rol oynamışdır. Beləliklə, türk xalqlarının qazandığı tarixi nailiyyətin, milli azadlığın, dövlət müstəqilliyinin təzahürü kimi dəyərləndirilə bilən və Türkiyə Cümhuriyyətinin sabiq prezidenti Turqut Özalın təşəbbüsü, türkdilli dövlətlərin başçılarının iradəsi və arzusu ilə 1992-ci ilin oktyabrında Ankaradakı Zirvə görüşü və qəbul edilən Ankara Bəyannaməsi ölkələrimizin həyatında tarixi hadisəyə çevrilmişdir. Həmin görüşlər xalqlarımız arasında çoxyönlü əməkdaşlığın, ilk növbədə, müştərək mədəniyyətin, adət-ənənələrin, tarixin, milli-mənəvi dəyərlərin bərpası yolunda gözəl nəticələr vermiş, gələcək üçün geniş perspektivlər açmışdır (8, s.7). Türk xalqlarının milli-mədəni irsinin öyrənilməsi və əlaqələndirilməsi məqsədi daşıyan TÜRKSOY təşkilatının yaradılması və müntəzəm keçirilməsi də məhz Zirvə görüşlərinin uğurlu nəticələrindən idi.

1993-cü ildə yaradılmış TÜRKSOY-un tutduğu əsas xəttin məqsədi fərqli coğrafiyalarda yaşayan türk xalq-

larının bir-birinin mədəniyyətini tanıması və öyrənməsidir. "Daha doğrusu, türk xalqlarının mədəni irsin öyrənilməsi, qorunması və təbliğində bir araya gəlməsidir" (1). 1993-cü ildən TÜRKSOY bəşər sivilizasiyası xəzinəsinə Dədə Qorqud, Manas, Nizami, Füzuli, Yəsəvi, Mahmud Kaşğari, Yusif Balasaqunlu, Uluqbəy, Yunis İmrə, Nəvai, Məhdimqulu, Abay irsi kimi nadir incilər vermiş türk xalqlarının mədəni inteqrasiyası, bu qədim və zəngin irsin araşdırılıb üzə çıxarılması, dünyada geniş təbliğ olunması, müxtəlif mədəni layihələrin gerçəkləşdirilməsində faydalı işlər görmüşdür. TÜRKSOY-un mədəni yönümü, digər beynəlxalq təşkilatlarla, xüsusilə UNESKO ilə qurduğu əməkdaşlıq əlaqələri təqdirəlayiqdir.

Fəaliyyətə başladığı dövrdən TÜRKSOY öz məqsədinə sadiq qalmışdır. Türk xalqları arasında əlaqələrin inkişafı, ortaq mədəni dəyərlər vasitəsilə dostluq və qardaşlıq tellərinin möhkəmləndirilməsinə xidmət edən TÜRKSOY artıq mötəbər beynəlxalq təşkilata çevrilib. Təşkilat ötən illər ərzində türk xalqları mədəniyyətinin inkişafı və beynəlxalq aləmdə təbliği sahəsində səmərəli fəaliyyəti ilə öz məqsəd və məramının bütün dünyada nümayişinə nail olmuşdur.

Dahi şəxsiyyətlərin, milli türk mədəniyyəti korifeylərinin, bəşər mədəniyyətinin inciləri sayılan milli eposların əlamətdar ildönümlərinin, xalqlarımızın həyatındakı mühüm və tarixi hadisələrin birlikdə bayram edilməsi artıq ənənə halını almışdır. Bu mənada zəngin mədəni dəyərlərimizlə bağlı birgə layihələrin, tədbirlərin, konkret işlərin bu təşkilat çərçivəsində həyata keçirilməsi hərtərəfli əlaqələri genişləndirmək baxımından xalqlarımız üçün böyük əhəmiyyətə malikdir.

TÜRKSOY-un indiyədək keçirilmiş toplantılarının nəticələri sübut edir ki, onun fəaliyyəti türk xalqlarının dünya mədəniyyətinə inteqrasiya səylərini artırır, öz mənəvi dəyərlərini tanıtmalarına kömək göstərir. Müxtəlif ölkələrdə keçirilən mədəniyyət günləri, festivallar, beynəlxalq müsabiqələr, sərgilər, yubiley və xatirə gecələri bu istiqamətdə atılan müştərək addımlardır.

Azərbaycan Respublikasının sabiq Mədəniyyət naziri Polad Bülbüloğlu TÜRKSOY-un 2001-ci il yanvarın 16-17-də Bakıda keçirilmiş on beşinci toplantısındakı çıxışında demişdir: "Onun beynəlxalq nüfuzunun belə sürətlə artması təsdiqləyir ki, dünyada mədəniyyətin və sənətin aça bilmədiyi qapı, toxunmadığı ürək yoxdur və mən inanıram ki, birgə olduğumuz müddətdə biz daha güclüyük, Bakı görüşü isə ölkələrimizin və xalqlarımızın daha da birləşməsinə xidmət edəcəkdir. TÜRKSOY özünün modeli, uluslararası statusu, sadə və açıq strukturu, demokratik idarəetmə sistemi ilə heç bir təşkilata bənzəməyən, analoqu olmayan bir qurumdur" (9).

"Manas" eposunun 1000, Əmir Teymurun 660, Məhəmməd Füzulinin 500, Abay Kunanbayevin 150 illiyinin, Qazaxıstanın yeni paytaxtı Astananın açılışının, türkdilli xalqların milli eposu, ümumi sərvəti olan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinə həsr olunan yubiley mərasimlərinin birlikdə bayram edilməsi xalqlarımız, dövlətlərimiz arasında ikitərəfli münasibətlərin, mədəni inteqrasiyanın inkişafına əyani sübutdur. Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd türk xalqlarının əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Eyni zamanda həmin yubiley tədbirlərinin keçirilməsi onu da göstərir ki, "İbn Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Kaşğari, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlar təkcə bizim xalqlarımıza məxsus deyil" (8, s.9), onlar həm də bütün bəşəriyyətin mədəni sərvətidir.

Bakıda türkdilli dövlətlərin başçılarının 8 aprel 2000-ci ildə keçirilən altıncı zirvə görüşündə nitq söyləmiş Süleyman Dəmirəl bu toplantıların 1992-ci ildən başlanmasını gecikmiş bir hadisə kimi qiymətləndirib: "Onun gecikməsi tarixi səbəblərlə bağlıdır. Zərurət yetişincə, tarixi şərtlər əl verincə bu, gerçəkləşmişdir. Əslində, bu, altıncı deyil, bəlkə də, 60-cı, 100-cü zirvə olmalı idi. Amma ötən dövr ərzində zirvə toplantılarını mütəmadi keçirmək və bu günə çatdırmaq çox önəmlidir" (2; 8, s.9).

Zirvə görüşlərinin, TÜRKSOY tədbirlərinin tarixi bir daha sübut edir ki, belə əhəmiyyətli toplantıların müntəzəm keçirilməsi xalqlarımızın siyasi, ictimai və mədəni həyatında çox böyük hadisələrdir. Mədəni əlaqələrin qurulması istiqamətində ən böyük uğur isə türk xalqları ilə ənənəvi münasibətlərin yaradılmasıdır. Bu da səbəbsiz deyil, çünki hər bir ailənin gələcəyi, xoşbəxtliyi səmimiyyət və məhəbbətdən qaynaqlandığı kimi, dünyanın da gələcəyi xalqların, millətlərin qarşılıqlı münasibətinə və əməkdaşlığına bağlıdır. Millətlərin öz soy kökünə – dilinə, dininə, imanına, əcdadlarının adət-ənənəsinə qayıtdığı bir zamanda bu mehribanlığa və birliyə ehtiyac daha çox hiss olunur. TÜRKSOY da yarandığı gündən türk xalqlarının birlik və əməkdaşlığının inkişafı naminə səmərəli işlər görmüşdür.

Başqırdıstanın paytaxtı Ufa şəhərində (may, 2000-ci il) keçirilən XIV dönəm toplantısında ortaq türk mədəniyyətinin, dilinin, adət-ənənəsinin qorunub saxlanılmasına xidmət göstərdiyi, xalqlar arasında qardaşlıq və mədəni əməkdaşlıq körpüsü olduğu bir daha sübuta yetirilmişdir. Qeyd edək ki, 1991-ci ildən etibarən Ufada türkdilli xalqların iştirakı ilə beş ildən bir reallaşan "Tuqanlıq" (doğmalıq, qardaşlıq) adlı teatr festivalı bu baxımdan çox önəmlidir. "Tuqanlıq" festivalında hər bir tamaşa ertəsi gün teatrşünasların, festival iştirakçılarının və tamaşaçıların iştirakı ilə geniş müzakirə və təhlil edilir. Festival günlərində, həmçinin türk teatrının problemlərinə həsr olunmuş elmi konfrans keçirilir (8, s.8). "Tuqanlıq" festivalının uğurları türk teatrlarının, türk mədəniyyət və incəsənət xadimlərinin gələcəkdə də bir araya gələrək türk mədəniyyətinin tarixi şöhrətinin qaytarılması yolunda çarpışdıqlarını göstərməkdədir.

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin türkdilli ölkələrin mədəniyyət nazirlərinin Daimi Şurasına ünvanladığı müraciətində də bu təşkilata nə qədər əhəmiyyət verildiyi aydın görünür: "Böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki,



bəxş etmiş türk dünyası xalqlarının əməkdaşlığının daha da genişləndirilməsindən söhbət açan natiqlər bildirmişlər ki, bu, tarixən yaranmış bənzərsiz mədəni irsimizi indiki nəsillərə qaytarmaqla yanaşı, onu dünyaya daha da yaxından tanıtmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha nümayiş etdirmək baxımından son dərəcə önəmlidir. Bu sahədə TÜRKSOY təşkilatının gördüyü işlər və ümumən onun fəaliyyəti barədə də məlumat verilmişdir. Dövlət başçılarının VIII Zirvə görüşündə elan edilmiş bəyannaməsində isə mədəniyyət məsələləri xüsusi yer tutmuşdur. 19 maddədən ibarət bəyannamənin 3-cü maddəsində deyilirdi ki: "Dövlət başçıları tarixi, dil və mədəni əlaqələrin möhkəmləndirilməsinə və bu istiqamətdə işin gücləndirilməsinə tərəfdar olduqlarını, TÜRKSOY-un təhsil və mədəniyyət sahəsində fəaliyyətinin müsbət töhfə verdiyini bildirmiş və təşkilatın fəaliyyətini bundan sonra da təşviq edəcəklərini vurğulamışlar" (5; 8, s.9).

TÜRKSOY-un qurucu ölkələrindən olan Azərbaycan Respublikası bu hərəkatın elə ilk günlərindən onun fəal iştirakçısıdır. TÜRKSOY-un məqsəd və vəzifələri müstəqil Azərbaycan dövlətinin mədəniyyət sahəsindəki strategiyasına tam uyğundur. Buna görə də biz TÜRKSOY-un fəaliyyətinə böyük əhəmiyyət verir və onu dəstəkləyirik" (3). Heydər Əliyev 2001-ci il yanvarın 16-da da Prezident sarayında TÜRKSOY təşkilatının XV toplantısında iştirak edən türkdilli ölkələrin nümayəndələrini qəbul edərək bildirmişdir ki, "təşkilatın əsas məqsədi birinci növbədə bizim tarixi keçmişimizi, köklərimizi, mədəniyyətimizi və bunların hamısının müştərək olduğunu yenidən araşdırmaq və bugünkü nəsillərə çatdırmaqdan ibarətdir". O, TÜRKSOY təşkilatının əhəmiyyətindən bəhs edərkən iqtisadi və ticarət əlaqələrinin fərqinə də toxunmuş və demişdir: "Dünya ticarətsiz, iqtisadiyyatsız yaşaya bilməz. Ticarətin, iqtisadiyyatın nə milliyyəti, nə də milli kökü var. Amma mədəniyyət, dil, milli dəyərlər, ənənələr böyük tarixə və dərin köklərə malikdir. Bizim ədəbiyyatımızı, musiqimizi, tarixi köklərimizi sübut edən əsərlərimiz – bunların hamısı təbii ki, çox əhəmiyyətlidir. Məsələn, biz keçən il "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini keçirdik. Bütün türkdilli dövlətlərdən, təkcə türkdilli dövlətlərdən yox, bir çox ölkələrdən, o cümlədən Avropa ölkələrindən nümayəndə heyətləri gəlmişdi. Biz "Kitabi-Dədə Qorqud" haqqında, demək olar ki, o bir il içərisində öyrəndiyimizin heç on faizini də bilmirdik. Amma indi "Kitabi-Dədə Qorqud" hamı üçün ulu babadır. Birisi Dədəm Qorqud deyir, biri Ata Qorqud deyir, digəri Dədə Qorqud deyir. Sizin gördüyünüz işlər xalqımız üçün ən dəyərli işlərdir. Bu təşkilat yaşayacaq, inkişaf edəcək və gələcək nəsillər üçün də çox yeni şeylər yaradacaqdır" (5).

Azərbaycan Respublikası Prezidentinin də iştirak etdiyi və türkdilli dövlət başçılarının 26-27 aprel 2001-ci il tarixdə İstanbul şəhərində keçirilən VII Zirvə görüşündə qədim və zəngin mədəniyyətə malik, bəşəriyyətə görkəmli şəxsiyyətlər

TÜRKSOY-un 10 illiyi münasibətilə İstanbulda keçirilmiş 18-ci toplantısına (16 iyul 2002-ci il) təşkilat üzvü mədəniyyət nazirləri ilə yanaşı, Rusiya Federasiyası mədəniyyət nazirinin müavini, Rusiyanın Altay və Saxa (Yakutiya) respublikalarının mədəniyyət nazirləri, tanınmış yazıçılar və mədəniyyət xadimləri də qatılmışlar. Türkiyə Respublikasının mədəniyyət naziri B.Suat Çağlayanın məruzəsindən sonra toplantıda iştirakçı ölkələrin mədəniyyət nazirləri çıxış etmişlər. Onlar ötən on il ərzində TÜRKSOY-un beynəlxalq aləmdə nüfuz qazanmasından, zəngin ümumtürk mədəniyyətinin təbliği sahəsində görülən işlərin əhəmiyyətindən danışmışlar. Azərbaycan Prezidentinin bu beynəlxalq təşkilatın fəaliyyətinə yüksək qiymət verdiyi bildirilərək səmərəli əməkdaşlıqdan danışılmış, Məhəmməd Füzulinin 500 illik və "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin ölkəmizdə və UNESKO tərəfindən Parisdə bayram edilməsində, habelə "Dədə Qorqud" ensiklopediyasının nəşrində TÜRKSOY-un fəal iştirakı vurğulanmışdır. Təşkilatın keçdiyi yol səciyyələndirilmiş, onun türkdilli xalqların milli mənəviyyatını yaşadan, dil və soy birliyini təmin edən, minillik mədəni zənginliyinə sahib çıxan və bu dəyərləri dünyaya tanıdan nüfuzlu təşkilata çevrildiyi qeyd olunmuşdur. 2002-ci il iyulun 17-də TÜRKSOY-un 18-ci toplantısı Ankara şəhərində davam etmiş (4; 8, s.10), mədəniyyət nazirləri Mustafa Kamal Atatürkün məqbərəsini ziyarət etdikdən sonra TÜRKSOY-un binasının təməlinin qoyulması mərasimində iştirak etmişlər.

TÜRKSOY-un 10 illiyi münasibətilə İstanbulda keçirilən 18-ci

toplantısında (2002-ci il iyulun 16-da) təşkilatın 19-cu toplantısının 2003-cü ilin yanvar ayında Azərbaycanda keçirilməsi qərara alındı. Bu qərarla 2003-cü il fevralın 5-də Bakı Muzey Mərkəzində TÜRKSOY-un Daimi Şurasının növbəti 19-cu iclası baş tutmuşdur. Türkdilli ölkələrin, o cümlədən 6 müstəqil dövlətin və Rusiya Federasiyasının subyekti olan 6 türkdilli respublikanın mədəniyyət nazirlərinin iştirak etdikləri həmin iclasda türk dünyasının mədəni inteqrasiyasında təşkilatın rolu dəyərləndirildi. Bu günə kimi TÜRKSOY-un xətti ilə keçirilmiş bütün tədbirlərdə təşkilatın məqsəd və məramı daima diqqət mərkəzində olmuşdur. Bu tarixi-mədəni proseslər fonunda bir fakt özünü tam aydınlığı ilə büruzə verir ki, müasir dünyada mədəni inteqrasiya, qloballaşma geniş vüsət aldıqca Azərbaycan Respublikasının bu prosesdə oynadığı rol da getdikcə artır. Dünya dövlətləri, beynəlxalq təşkilatlarla ikitərəfli əlaqələr inkişaf etdirilir, qarşılıqlı razılaşmalar əldə edilir, mədəni əməkdaşlıq genişləndirilir. Xüsusilə də Azərbaycanın Türkiyə və digər türk dövlətləri ilə münasibətlərində yeni keyfiyyət dəyişiklikləri müşahidə edilir. Bu dəyişikliklər özünü türkdilli dövlətlərin mədəni əməkdaşlığında daha qabarıqlığı ilə büruzə verir.

Türk xalqlarının ortaq keçmişini – dil, ədəbiyyat, mədəniyyət və incəsənətini bir bütün halında təqdimatla bir çox elmi tədbirə imza atan TÜRKSOY, elan etdiyi anma illəri, anma tədbirləri və il-boyu fərqli ləhcə və dillərdə oxucuların ixtiyarına verdiyi əsərlərlə, türk dünyasının görkəmli şəxsiyyətlərinin bəxş etdikləri mədəni irsi gələcək nəsillərə ötürməkdədir. O cümlədən, 2010-cu ili doğumunun 120-ci ildönümü münasibətilə Başqırd elm adamı Prof. Dr. Zəki Vəlidi Toğana; 2011-ci ili doğumunun 125-ci ildönümü münasibətilə tatar şair Abdullah Tukaya; 2012-ci ili doğumunun 200-cü ildönümü münasibətilə Azərbaycan dramaturqu Mirzə Fətəli Axundzadəyə və doğumunun 150-ci ildönümü münasibətilə Xakasiya əsilli türkoloq Nikolay Qatanova; 2013-cü ili doğumunun 100-cü ildönümü münasibətilə qazax bəstəkarı Mukan Tölebayevə; 2014-cü ili doğumunun 290-cı ildönümü münasibətilə türkmən təsəvvüf və şairi Məhtimqulu Fəraqi və doğumunun 150-ci ildönümü münasibətilə Toktoğul Satılqanova; 2015-ci il doğumunun 100-cü ilində türk teatr yazarı Haldun Taner, doğumunun 130-cu ilində isə məşhur Xakasiya dastançısı Semen Kadışevə; 2016-cı il doğumunun 1000-ci ilində şair, elm adamı və mütəfəkkir Yusuf Has Hacibə; 2017-ci il doğumunun 300-cü ilində Azərbaycan ədəbiyyatının önəmli ismi Molla Pənah Vaqifə ithaf edilmiş; 2018-ci ili isə doğumunun 90-cı ilində Çingiz Aytmatovun, 100-cü ilində Qara Qarayev və 125-ci ilində Mağcan Cumabay ili olaraq elan edilmişdir.

Özünü sürəkli inkişaf etdirən və yeniliklərə imza atan TÜRKSOY-un mədəniyyət həyatına verdiyi yeniliklərdən biri də Türk dünyası mədəniyyət paytaxtı tədbirləridir. Şəhərlərimizin mədəniyyət və incəsənət həyatına rəng qatan tədbirlər çərçivəsində "2012-ci ildə Qazaxıstanın rəngli paytaxtı Astana; 2013-cü ildə Türkiyənin modern üzü Əskişəhər; 2014-cü ildə Tatarıstanın tarixi şəhəri Kazan; 2015-ci ildə Türkmənistanın qədim şəhəri Mərv; 2016-cı ildə Azərbaycanın təbiət möcüzəsi Şəki; 2017-ci ildə Qazaxıstanın Türküstan şəhəri; 2018-ci ildə isə Türkiyənin Kastamonu şəhəri türk dünyası mədəniyyət paytaxtı seçilmişdir.

Üzeyir Hacıbəylinin altı ölkədə tamaşaçılara nümayiş etdirilən ölməz "Koroğlu" operası, Türkiyədə ilk dəfə opera repertuarına daxil edilən Mukan Tölebayevin "Birjan və Sara" operası, doqquz ölkədən 200 sənətçinin iştirakı ilə, bir Amerikan xoru ilə bərabər Türkiyə və Amerika Birləşmiş Ştatlarında ifa edilən Adnan Saygunun "Yunus Əmrə" oratoriyosı son illərdə TÜRKSOY-un gerçəkləşdirdiyi özəl layihələrdən bəziləridir.

Türk Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY-un koordinasiya içərisində çalışdığı qardaş təşkilatlardır. Bundan başqa TÜRKSOY eyni prinsip və məqsədləri paylaşdığı UNESKO və ISESCO kimi beynəlxalq təşkilatlarla yanaşı, bir çox bələdiyyə, universitet və qeyri hökumət təşkilatları ilə əməkdaşlıqları reallaşdırmaqdadır.

Azərbaycanda – Naxçıvan Muxtar Respublikasında keçirilən (3 oktyabr 2009-cu il) toplantıda əsası qoyulan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) ötən 10 il ərzində türkdilli xalqların həyatında əhəmiyyətli rol oynadığını sübut etdi. Məhz Naxçıvan Zirvə görüşündən sonra Türk Akademiyası, Türk Əməkdaşlıq Şurası, Türk Miras Fondu və Türk Ağsaqqallar Şurası kimi təşkilatlar yarandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir ki, BMT-də, İslam Konfransı Təşkilatında, ATƏT-də və digər təşkilatlarda ölkələrimiz bir-birinə həmişə dəstək verir və bu, belə də olmalıdır: "Çünki bizi müştərək tarix birləşdirir, tarixi-mədəni köklər birləşdirir. Əldə olunmuş nailiyyətlər türkdilli xalqlar, eyni zamanda, dünya üçün mədəniyyətimiz, tarixi-miz, milli dəyərlərimiz, o cümlədən bugünkü həyatımız böyük maraq doğuracaqdır. Ortaq televiziya kanalı qısa müddət ərzində beynəlxalq auditoriyaya çıxacaq və böyük maraq doğuran, bizim siyasətimizi əks etdirən kanala çevriləcəkdir. Çünki bu gün dünyada informasiya təhlükəsizliyi xüsusi yer tutur və hər bir ölkə buna hazır olmalıdır. Biz öz informasiya təhlükəsizliyimizi təmin etməliyik, eyni zamanda, ölkələrimiz haqqında həqiqətləri dünyaya olduğu kimi çatdırmalıyıq" (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) V Sammitində İlham Əliyevin nitqi. 11 sentyabr 2015-ci il. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. https://president.az/articles/16221/print).

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 2009-cu il Naxçıvan Sammitinin qərarı ilə təsis edilərək Astana şəhərində yaradılmış Türk Akademiyası və Türk Tarixi Muzeyi çərçivəsində Türk Kitabxanası təşəbbüsü dəstəklənmiş, Türk Universitetləri Birliyi qurulmuş, Ortaq Terminologiya Komitəsinin ilk toplantıları keçirilmişdir. Qeyd edək ki, artıq Türk Akademiyası müştərək mədəniyyətin öyrənilməsi və təbliği istiqamətində əhəmiyyətli işlər görüb. Bu mənada Türk Akademiyasının üzərində çalışdığı əsas vəzifələrdən biri də, orta məktəblərdə tədris olunacaq ortaq türk tarixi və ədəbiyyatı kitablarının hazırlanmasıdır.

TDƏŞ, TÜRKSOY, TÜRKPA, Beynəlxalq Türk Akademiyası, Türkdilli Dövlətlərin Ağsaqqallar Şurası kimi beynəlxalq təşkilat və birliklərin, Türk Mədə-niyyəti və İrsi Fondu, eləcə də Köçəri Sivilizasiya Mərkəzinin yaradılması digər türkdilli təşkilatlarla birgə mənəvi türk birliyinin formalaşmasına xidmət edir. Bu gün türkdilli ölkələr mədəniyyətin bütün sahələrində TÜRKSOY çərçivəsində geniş əməkdaşlıq edir, beynəlxalq təşkilatlar ətrafında səmərəli fəaliyyət göstərir. Bu, ilk növbədə, ondan irəli gəlir ki, türklərin zəngin ortaq tarixi, dini, dili, adət-ənənələri və mənəvi dəyərləri vardır. "Bu amillərin hər biri bir bütövün parçalarıdır və türkdilli ölkələr eyni kökdən su içmiş bir ağacın budaqlarıdır. Bu kökə nə qədər bağlı olsaq sağlam bir ağac kimi hər zaman dik duraraq zamanın sınaqlarından keçə bilərik" (Əfəndiyeva Günay. Əsas hədəfimiz türk dünyasının mədəni irsini ona qaytarmaqdır. "Mədəniyyət" qəzeti, 27 noyabr 2015-ci il.). Türk xalqlarının qədim mədəniyyət zənginliyinə sahib çıxmaq, onu qoruyub gələcək nəsillərə ötürmək bizim prioritet vəzifəmizdir. Əsas prioritetlər türk xalqlarının müştərək mədəni irsinin təbliği yönündə ortaq layihələrin gerçəkləşdirilməsi, bu irsin tədqiq edilərək öyrənilməsi, türk dünyası ilə yanaşı dünyada təbliği və tanıdılmasıdır.

TÜRKSOY-un baş katibi Düsen Kaseinov ilə 9 fevral 2018-ci il tarixli görüşündə UNESKO və ISESCO ilə sıx əməkdaşlıq edən TÜRKSOY-un müxtəlif beynəlxalq forumlarda iştirakını, türkdilli xalqların mədəniyyətinin təbliğində mühüm rolunu diqqətə çatdıran Mədəniyyət naziri Əbülfəs Qarayev bildirmişdir ki, "türk mədəniyyətini, xalqlarımızın milli adət-ənənələrini beynəlxalq aləmə birlikdə çıxarmalıyıq". (TÜRKSOY-un fəaliyyəti türkdilli xalqların birliyinə xidmət edir. "Mədəniyyət" qəzeti, 14 fevral 2018-ci il.).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi və UNESKO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, BMT-nin Ümumdünya Turizm Təşkilatının, Avropa Şurasının Şimal-Cənub Mərkəzi və ISESCO-nun bilavasitə tərəfdaşlığı ilə təşkil edilmiş və "Müştərək təhlükəsizlik üçün mədəniyyətləri paylaşaq" devizi altında keçirilmiş Forumla bağlı Mədəniyyət naziri Əbülfəs Qarayev demişdir: "Əslində bu deviz tədbirin strateji-tematik istiqamətini müəyyən etmişdir: birgəlik, təhlükəsizlik və mədəniyyət... Birgə yaşama, təhlükəsizliyin təmini və mədəniyyətlərə qarşılıqlı hörmət – dün-yaya sabahkı günü təmin edən şərtlərdir" (Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu – qlobal siyasi səhnədir. Echo.az saytının suallarını Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev cavablandırır). ❖


**Ədəbiyyat:**

1. Beynəlxalq TÜRKSOY təşkilatının XV toplantısında Azərbaycan Respublikasının Mədəniyyət naziri Polad Bülbüloğlunun çıxışından. "Mədəni-maarif" jurnalı, 2001, №1-2, s.8-10.
2. "Dirçəliş – XXI əsr" jurnalı, 2000, aprel, № 4 (26), s.9.
3. "Ədəbiyyat qəzeti", 19 iyul 2002-ci il.
4. "Ədəbiyyat qəzeti", 26 iyul 2002-ci il.
5. Heydər Əliyev və Şərq. Birinci kitab. Bakı, "Tural–Ə" NPM, 2002.
6. Heydər Əliyev. Bakıda türkdilli dövlətlərin başçılarının VI Zirvə görüşündəki nitqindən. "Dirçəliş – XXI əsr", aprel, 2000, № 4 (26), s.5.
7. Həsənov Əli. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1998.
8. Hüseynova F.İ. TÜRKSOY – Türk xalqlarının mədəni inteqrasiyasının təzahürü kimi. "Mədəni-maarif" jurnalı, 2006, №4, s.7-10.
9. "Mədəni-maarif" jurnalı, 2001, № 1-2 (123-124), s.8.



**Резюме**

В статье говорится о целях и задачах международной культурной организации ТЮРКСОЙ. В настоящее время созданы условия для укрепления отношений тюркских народов, имеющих общие корни, историю, язык, религию и культуру. Организованная впервые в Анкаре (октябрь, 1992 г.) встреча тюркоязычных государств, превратилась в прекрасную традицию на протяжении многих лет и сегодня служит укреплению сотрудничества между тюркскими народами.



**Ключевые слова:** ТЮРКСОЙ, тюркский мир, тюркские народы, тюркская культура, культурное наследи.



**Summary**

The purposes and missions of international cultural organisation TURKSOY are given in the article. The opportunity has been created for strengging of relationships of turkic peoples, which from the same roots in the terms of historical, origin, language, religion and cultural. The summit meeting of state leaders of turkic speaking peoples,which organized for the first time in Ankara (October, 1992 y.) has became a nice tradition in the last years and today it is servicing to the strengging of cooperation among turkic peoples.



**Key words:** TURKSOY, turkic world, turkic peoples, turkic culture, cultural heritage.